


# Böyük yazıçı-dramaturq "Cəlil Məmmədquluzadə 150" (metodik vəsait) kitabı işıq üzü görüb

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə gerçəkləşdirilən layihə çərçivəsində Azərbaycan ədəbiyyatı tarixində özündən sonra ilk dəfə olaraq, ədəbi məktəb yaratmış "Molla Nəsrəddin" jurnalının naşiri və redaktoru, tanınmış yazıçı və dramaturq Cəlil Məmmədquluzadə anadan olmasının 150 illik yubileyi münasibətilə "Cəlil Məmmədquluzadə 150" (metodik vəsait) kitabı 39 səhifə həcmində, 100 tirajla işıq üzü görüb. Kitbın tərtibçisi tarix üzrə fəlsəfə doktoru A.Abdullayeva, elmi redaktor Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov, redaktor Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin 17 yanvar 2019-cu il tarixli sərəncamına əsasən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli 4 Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb, həyata keçirir.

***Kamran MURQUZOV,***
***Azərbaycanın Mədəniyyət və Ədəbiyyat Portalının Mətbuat xidmətinin rəhbəri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü.***

